TƏSDİQ EDİLMİŞDİR
Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi
Farmakoloji və Farmakopeya
Ekspert Şurasının sədri
_____________ E.M.Ağayev
"08" oktyabr 2019-cu il

Dərman vasitəsinin istifadəsi üzrə təlimat (xəstələr üçün)

**OKSOLİN MƏLHƏMİ** yerli istifadə üçün məlhəm
OXOLIN OINTMENT

**Tərkibi**
*Təsiredici maddə:* 1 q məlhəmin tərkibində 2,5 mq oksolin vardır.
*Köməkçi maddələr:* mineral yağ, ağ yumşaq parafin.

**Təsviri**
Ağ rəngdən sarı rəngə qədər məlhəmdir. Saxlanma müddəti ərzində çəhrayı çaların yaranması yolverilir.

**Farmakoterapevtik qrupu**
Hiss orqanlarına təsir edən vasitələr. Virusəleyhinə vasitələr.
**ATC kodu:** S01AD.

**Farmakoloji xüsusiyyətləri**
***Farmakodinamikası***
Preparat yerli istifadə zamanı qrip viruslarına və adenoviruslara virusid təsir göstərir.
***Farmakokinetikası***
Qrip virusunun (əsasən A2 tipli) hüceyrə membranının səthi ilə birləşmə sahəsini blokada edir, virusun hüceyrəyə nüfuz etməsinin qarşısını alır.

**İstifadəsinə göstərişlər**
- Epidemiya zamanı qripin fərdi profilaktikası;
- virus rinitlərinin, rinokonyunktivitlərinin müalicəsi.

**Əks göstərişlər**
Preparatın istənilən komponentinə qarşı yüksək həssaslıq.

**Xüsusi göstərişlər və ehtiyat tədbirləri**
Məlhəm. Gözün selikli qişasına istifadə üçün nəzərdə tutulmayıb.

**Digər dərman vasitələri ilə qarşılıqlı təsiri**
Burun boşluğunun selikli qişasının mümkün quruluğu nəticəsində, preparatı intra-nazal istifadə üçün adrenomimetik vasitələrlə eyni vaxtda istifadə etmək olmaz.

**Hamiləlik və laktasiya dövründə istifadəsi**
Hamiləlik və laktasiya dövründə preparatı, yalnız o zaman ehtiyatla istifadə etmək olar ki, ana üçün gözlənilən fayda dölə olan potensial riskdən üstün olsun.

**Pediatriyada istifadəsi**
Oksolin məlhəminin uşaqlarda istifadəsinin təhlükəsizliyini və effektivliyini öyrənən tədqiqatlar aparılmamışdır.

**Nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri**
Oksolin məlhəminin nəqliyyat vasitələrini və digər potensial təhlükəli mexanizmləri idarəetmə qabiliyyətinə təsiri barədə məlumat yoxdur.

**İstifadə qaydası və dozası**
Virus rinitlərinin müalicəsi və qripin profilaktikası məqsədilə preparat intranazal istifadə edilir. Virus rinitinin müalicəsi üçün preparat 3-4 gün ərzində sutkada 2-3 dəfə burunun selikli qişasına sürtülür. Epidemiya zamanı qripin fərdi profilaktikası məqsədilə preparatı hər gün səhər və axşam burunun selikli qişasına sürtmək məsləhət görülür, eləcə də, qripli xəstə-lərlə mümkün kontaktdan bilavasitə əvvəl sutka ərzində istifadə edilməlidir.

**Əlavə təsirləri**
Məlhəmdən istifadə zamanı bəzi hallarda, preparatın istifadə edildiyi nahiyədə qısamüddətli yanma hissi, rinoreya müşahidə edilmişdir.

**Doza həddinin aşılması**
Doza həddinin aşılması halları məlum deyil.

**Buraxılış forması**
10 q məlhəm, alüminium tubda. 1 tub, içlik vərəqə ilə birlikdə karton qutuya qablaşdırılır.

**Saxlanma şəraiti**
2-8°C temperaturda, orijinal qutusunda və uşaqların əli çatmayan yerdə saxlamaq lazımdır.

**Yararlılıq müddəti**
2 il.
Yararlılıq müddəti bitdikdən sonra istifadə etmək olmaz.

**Aptekdən buraxılma şərti**
Reseptsiz buraxılır.

**İstehsalçı**
"Ternofarm" MMC.

**Ünvan**
Ukrayna, 46010, Ternopol ş., Fabriçnaya k., 4.
Tel.:/Faks: (0352) 521-444.
http://www.ternopharm.com.ua